BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Humanitar elmlər seriyası 2009*

# QADIN KLUBLARI (1920-1930-cu illər)

**G.İ.İBRAHİMOVA**
*AMEA İnsan Hüquqları Elmi Tədqiqat Institutu*

Təqdim edilən məqalədə Sovet rejiminin ilk illərindən başlayaraq geniş qadın kütləsinin özfəaliyyətinə əsaslanan mədəni maarif və yaradıcılıq işi hesab edilən qadın klublarının fəaliyyəti, məqsəd və vəzifələri şərh edilir. İlkin mənbələrə istinadən sovetlərin ilk onilliklərində Azərbaycanda fəaliyyətdə olan qadın klublarının siyasi və peşəkar vasitələrlə qadınları sovet və İttifaq quruculuğuna cəlb edilməsinə təsiri; bu klublar vasitəsilə qadınların ümumi mədəni səviyyəsini qaldırılması; onlarda yeni məişətə, ictimai həyatın yeni formasına mane olan köhnə təsəvvürlərə qarşı mübarizənin gücləndirilməsi; qadınların bədii zövqünün və təbii qabiliyyətlərinin inkişaf etdirilməsi, savadsızlığın ləğvi və s. istiqamətdə fəaliyyəti göstərilir. Məqalədə eyni zamanda tədqiq edilən dövrdə rejimin möhkəmləndirilməsi istiqamətində Azərbaycan Siyasi Maarif İdarəsinin siyasi məqsədlərlə müxtəlif ictimai təşkilatlarda həyata keçirdiyi təcrübi tədbirlər şərh edilir və mövcud reallıqlar açıqlanır.

Sovet rejimi bütün kütləni, o cümlədən qadınları sovet kommunist ideologiyasının təsir dairəsində saxlayacaq müxtəlif çeşidli müəssisələrin təşkilinə böyük fikir verirdi. Bunların sırasında qadın klubları adını almış çoxproblemli müəssisələr böyük rol oynayırdı. Bu klubların ilk qaranquşu hələ 1920-ci ildə təşkil edilmiş «Əli Bayramov» adına qadınlar klubu idi. Klubun ilk direktoru Ceyran Bayramova digər həmfikirləri (Xavər Qarayeva, Ayna Sultanova və s.) ilə birlikdə qadınlar arasında böyük siyasi kütləvi iş aparırdı. Onlar qadınları ictimai faydalı əməyə cəlb edir, çadra və mövhumat əleyhinə təbliğat aparır, mədəni-maarif ocaqlarının müxtəlif uşaq müəssisələrinin yaradılmasına çağırırdılar. Artıq 1922-ci ildə Zaqatalada, Salyanda, ŞuşadaLənkəranda, Gəncədə belə klublar fəaliyyət göstərirdi [3,33, 37, 49]. 1924-cü ildə respublikada 12 qadın klubu var idi [5, 121-123]. Fəaliyyətdə olan qadın klubları qəzalardakı bütün qadın bölmələrini özlərində birləşdirirdi. İlk zamanlar onların fəaliyyəti bir sıra kiçik kustar artellər yaratmaqdan ibarət idi (bağ, dirrik işi, məktəblə tanışlıq, mühazirələr məruzə etmək və s.) [2, 144]. Siyasi Maarif İdarəsinin inzibati-təşkilati bölməsi 1922-1923-cü illərdə Əli Bayramov tipli qadın klublarının daha da artırılması barədə dəfələrlə məsələ qaldırmış, müvafiq qərarlar çıxarmışdı [4, v.1-142]. Belə qərarlardan birində deyilirdi «…Qadın klubu geniş qadın kütləsinin özfəaliyyətinə əsaslanaraq mədəni maarif və yaradıcılıq işidir və aşağıdakı məqsəd və vəzifələri daşıyır: sinfi özünüdərki gücləndirməklə siyasi və peşəkar vasitələri ilə qadınların sovet və İttifaq quruculuğuna cəlb edilməsinə təsir etmək; qadınların ümumi mədəni səviyyəsini qaldırmaq; onlarda yeni məişətə, ictimai həyatın yeni formasına və ömrünü başa vurmuş, sinfi özünüdərkə mane olan dini, milli və s. köhnə təsəvvürlərlə mübarizə əzmini canlandırmaq; ictimai həyatın, siyasətin, təsərrüfatın və məişətin bütün sahələrini burjua və meşşan düşüncə tərzindən azad etmək; qadınların bədii zövqünü və təbii qabiliyyətlərini inkişaf etdirmək məqsədilə

incəsənətin bütün növlərinə (dramatik, musiqi, sənət əsərləri və s.) müraciət etmək; müxtəlif dərnək, özəklərin (savadsızlığın ləğvi, şəhər və kəndələrə hamilik və s.) təşkil edilməsi yolu ilə sovet quruculuğu prosesinin inkişaf etdirilməsi və möhkəmləndirilməsi istiqamətində müxtəlif ictimai təşkilatlarda təcrübi tədbirlərin keçirilməsi; fəhlələrin, kəndlilərin və onların ailələrinin mənalı əylənməsi və istirahəti ilə bağlı məsələlərin təşkil edilməsi; uşaq meydançaları, idman dərnəklərinin və s. yaradılması yolu ilə fəhlə və kəndlilərin sağlamlığının qorunması yolunda mübarizə; əmək şəraitinin, istehsalın yaxşılaşdırılması, fəhlə və qulluqçuların ixtisasının qaldırılması sahəsinə təsir göstərmək və s.

Klublar göstərilən məqsədlərə çatmalı və müsbət nəticə əldə etməklə yanaşı kütləvi iş aparmalı və dərnəklərini genişləndirilməli idilər [1,7-8]. Qadınlar arasında ictimai-mədəni işin səviyyəsini yüksəltmək məqsədilə qiraət koması müdiri hazırlamaq üçün 2 aylıq kursların proqramının hazırlanması nəzərdə tutulurdu. Qiraətxana komaları haqqında aşağıdakı təkliflər verilirdi: mövcud qiraət komalarının işi qaneedici olmadığından onların qiraətxana kimi hesab etmək məqsədə müvafiq deyil. Növbəti mərhələdə qiraət komalarını vahid siyasi və mədəni maarif mərkəzinə döndərməkdən ötrü çalışmalı; qiraət komaları ümumi siyasi və mədəni maarif işlərini öz məşğul olduğu məsələlərin içərisinə salmaqdan ötəri ASMİ-sinin lazımi təşəbbüslərini qəbul etməli və labüd iş planını tərtib etməli; qiraət komalarının miqdarının deyil; məlumatlandırmanı təmin etməli; məhəllələri kəndin kütləvi-mədəni qüvvələrini məlumat işləri dairəsinə cəlb etməli (müəllimlər, təbiblər və s.); məhəlli şəraiti nəzərə almaqla kənd müxbirləri savadsızlığın ləğvi və kooperativ dərnəklərin təşkilinə çalışmalı; əlaqədar idarə və orqanları maddi və mənəvi köməklər etməyə cəlb etməli, dram dərnəklərinin işini gücləndirməli(kəndli qəzetinin təşkili və s.) [1, 26-27]. Qadınları klub işlərinə və qiraət komalarına daha çox cəlb etmək üçün bu müəssisələrin işlərini canlandırmaq məqsədilə ASMİ-si aşağıdakı tədbirlərin keçirilməsini təklif edirdi: savadsızlığın ləğvi məntəqələrinin təşkili, qadınları maraqlandıran məsələlərlə bağlı mühazirələrin oxunması və məsləhətlərin verilməsi, istehsal artellərinin, xüsusi kursların təşkili (tikiş, biçmə, sənaye işçisi və s.), radio cihazlarının yoxlanılması və s. [6, 107].

Qeyd etmək lazımdır ki, hay-küylü kampaniyalara baxmayaraq, formal olaraq fəaliyyət göstərən qadın klublarının şəbəkəsi də bir o qədər geniş deyildi. AŞMİ-nin və AKP(b) MK-nin 1928/29-cu ilə aid məlumatlarına görə bütün respublikada olan qadın klubların sayı cəmi 23 idi. Azərbaycan SSR-də cəmisi 39 qəza kəndli guşəsi fəaliyyət göstərirdi. Hökumət bunu tamamilə kifayət hesab edirdi. Kişi və qadın hüquqlarının bərabərləşməsi baxımından Qəza qadın klublarının müdiri vəzifəsi, fəhlə klublarının Qəza həmkarlar ittifaqı müdiri vəzifəsi ilə eyni hüquqlu olur və maaşları bərabərləşdirilirdi [7, 22, 23; 6, 128] .

Şərqdə qadın klubları, kəndli guşələri işlərinə baxılması üçün qadın klublarının II Ümumittifaq müşavirəsi keçirilməsi və qadınların əsarətdən azad olması məqsədilə 5000 rubl vəsait ayrılması [15, 1, 5] və Fevral- mart, 1930-cü ildə II Ümumittifaq müşavirənin keçirilməsi ilə bağlı qətnamə qəbul edilir [14, 2-5]. 1930-cu ilin yanvarında Azərbaycan MİK nəzdində fəaliyyətdə olan Azərbaycan QƏMYK (Qadın Əməyi və Məişətinin Yaxşılaşdırılması Komissiyası) Dairə və qəza QƏMYK- in III Respublika müşavirəsinin keçirilməsi barəsində təklif irəli sürmüş və bu təklif-müraciətə MİK- də 8 yanvar 1930-cu ildə baxılmış və həmin müşavirənin keçirilməsi qərara alınmışdır [11, v. 1]. Qadınlarla bağlı dövlət orqanlarının qəbul etdiyi qərarlar və qanunlar real həyatda heç də özünü bütünlüklə doğrultmurdu. AzMİK-nin «Qadın-

lar arasında iş haqqında» 25 noyabr 1933- cü il tarixli qərarı bunu özündə aydın əks etdirir. Az.MİK Rəyasəti Heyəti açıq-aşkar qeyd edirdi ki, «RİK-ləri və kənd şuralarının çoxu bu ciddi işin bütün əhəmiyyətini nəzərə almamış və ona lazımlı rəhbərlik göstərməmişdir. Qadınların kənd təsərrüfatı istehsalına cəlb edilməsi qənaətbəxş deyildir. Qadınlar arasında kütləvi, mədəni- siyasi iş tempi ümumi tempdən geri qalır. İctimai-məişət idarələri sahələri inkişafdan qalır. Şura üzvləri qadınlarının şuraları seksiya və kolxoz nümayəndə və qruplarının təşkilatı- kütləvi işlərə cəlb edilməsi ifrat dərəcədə zəifdir.

Bir-birinin ardınca Azərbaycan SSR MİK-in Rəyasət Heyəti çoxsaylı hökumət təşkilatları və ictimai qurumlara uzun-uzadı, növbəti dəfə kağız üzərində qalacaq qeyri-real tapşırıq və tövsiyyələr verirdi [16, v. 3-5]. Bu qərarlara inanılarsa artıq bir neçə aya-1933-cü ilin sonu-1934-cü ilin I rübü üçün bu sahədə kardinal dönüş yaranmalı idi. Amma belə köklü dönüş heç sovet hakimiyyətinin bütün mövcudluğu dövründə belə yaranmadı. 1930-cu ildə Ə.Bayramov adına klubun 10 illiyi münasibəti ilə keçirilən iclasda G.Göylü qızı klub kabinəsinin təşkil olunmasının zəruriliyini qeyd edir. Qərara alınır ki, belə bir elmi kabinənin təşkili layihəsinin tərtib edilməsi G.Göylü qızına və A.Musabəyovaya həvalə olunsun. Növbəti iclasda G.Göylü qızı fəal qadınların işlərə cəlb edilməsi və onlardan klubda olan təşkilatlarda istifadə edilməsi barədə çıxış etmiş və bir sıra qadınların müxtəlif təşkilatlarda işləməsi barədə konkret qərarlar qəbul olunmuşdu [8, v.18]. Sovetlərin fikrincə Azərbaycan SSR-də qadınlar arasında işin mayakı rolunun oynamalı olan bu klubun işi o qədər də rəvan getmirdi. Məsələn, klubun 1931-ci il üzrə hesabatında açıqca bildirilirdi ki, dərnəklərdə zəif rəhbərlik aparılır, məşğələlər müntəzəm getmir, kənd-şəhər əlaqə cəmiyyətinin rəhbərliyi zəifdir, AHİŞ- mədəni maarif şöbəsi tərəfindən klubun bədii hissəsinə zəif yardım edilir, Azsnabtorq kluba və teatra lazımi materialları vaxtında buraxmır, bir çox təşkilatlardan gələn təliqə və göstərişlər rus dilində olduğu halda klubda işləyən yeni qadınların rus dilini bilməməsi problemlər yaradır. Hesabatda həmçinin göstərilirdi ki, XMK-nin klub üzərində rəhbərliyi zəifdir və klub darısqal binada yerləşir [9, 85-88, 95-98]. 1932-ci ildə 26 qadın klublunun 69 kəndli guşəsinin olmasına baxmayaraq, onlara ayrılan vəsaitin az olması üzündən çoxunun bağlanmaq təhlükəsi olduğu rəsmi dairələr tərəfindən belə açıq-aşkar göstərilir, yeni klubların açılması və ayrılmış vəsaitin çoxaldılması təklif edilirdi [9, 111]. Elə bunun özü rəsmi sovet məclislərindəki təmtəraqlı «qələbə» raportlarının arxasında yamaqlı-yırtıqlı reallıqların da yaşanmasından xəbər verirdi [4 yanvar 1932-28, noyabr 1933, 9].

1933-cü ilin əvvəllərində AK(b)P MK qeyd edirdi ki, mədəni təbliğat işinə zəif rəhbərlik nəticəsində Əli Bayramov adına qadınlar klubunun fəaliyyəti 1932-ci ildən zəifləmiş, türk qadınlarının tələbələrinə cavab verməmiş, öz işini köhnə metodlarla qurmuş «zəhmətkeş qadınların sosialist tərbiyələnməsində kütlələrin şəxsi təşəbbüsünün əsas baza olmasına və yeni türk qadın kadrların sosialist yenidənqurmasının şüurlu qurucuları kimi yetişdirilməsinə əsaslanmamışdır. Ona görə də həm kütləvi-siyasi və həm də mədəni tərbiyə ocağı kimi mühüm əhəmiyyətə malik olan bu klubun rəhbərliyində dəyişikliklər edildi, G.Qədirbəyli direktor təyin edilməklə yanaşı siyasi-maarif işinə sədrlik də ona həvalə olundu [9, v. 4].

Əli Bayramov adına qadınlar klubunun fəaliyyətdə olduğu müddətdə bir sıra Azərbaycan qadınlarının əvəzsiz xidmətləri oldu və onların əksəriyyəti repressiyaya məruz qaldılar. Onların hər biri mövcud totalitar rejimin verdiyi bəzi müsbət cəhətlərdən istifadə etməklə maarifin inkişafına, pedaqoji kadrların artırılmasına, əhalinin siyasi cəhətdən savadlanmasına çalışdılar və bu prosesdə özləri də yetkinləşərək ka-

mil şəxsiyyətlərə çevrildilər. Sovet rejimi onları məsul rəhbər vəzifələrdə oturtmaqla, ictimai işləri tapşırmaqla sanki «çox irəli buraxmışdı». Yüksək intellektual potensiala, siyasi təcrübəyə və savada malik olan bu insanların öz arzu və istəklərini reallaşdırmaq üçün yetişəcək zaman kifayət idi. Sözsüz ki, imperiyanın ikinci dərəcəli xalqlarından sayılan xalqın yaşadığı Azərbaycanda sovet hakimiyyətinin arzu və istəkləri bu şəxslərin arzu və istəkləri ilə üst-üstə düşmürdü. Imperiyanın yaşaması naminə onların məhvi labüd idi: Ayna Sultanova, Gülarə Göylü qızı, Qeysər Kaşıyeva, Xədicə Hüseynova, Xavər Qarayeva, Ceyran Bayramova… Bu mübariz fədailərin hər biri üçün özünüdərketmənin təşəkkülü bilavasitə fərdin şəxsiyyətə çevrilməsi prosesində baş verirdi. Psixi inkişafın və şəxsiyyətin formalaşması məsələləri isə bu prosesdə öndə durur: «Psixikanın yüksək səviyyəsi fərdin öz mədəni dünyasını yaratmaqla meydana gəlir, həmin dünyanın inikas etdirmək zərurətindən yaranır və öz növbəsində mədəni və təbii aləmi yeni keyfiyyətdə dərk edərək dəyişməsinə səbəb olur»[18, 3], «məhz şəxsiyyət özünün potensial imkanlarını dərk etməklə özünə həyat statusu qazana bilər»[19, 13]. Repressiyaya məruz qalan Ə.Bayramov adına qadınlar klubunun üzvlərinin hər biri isə özlərinin mədəni dünyasını yaratdılar. Şəxsiyyətlərinin özünügerçəkləşdirməsinin belə təzahürü yaşadıqları zamanda sərt totalitar rejimin norma və qanunları ilə bir araya sığmadığından onlar məhv edildilər.

Bu qadınların hər birinin fəaliyyətləri zamanı əldə etdikləri təcrübə, yiyələndikləri biliklər daxili tələbatlarının bilavasitə ödənilməsi üçün idi. Məsələn: Ayna Sultanova 1925-ci ili n sentyabrında XMK-nın kollegiyasına seçilmişdi [10, v.1]. O nəzəri cəhətdən savadını artırmaq üçün Moskvada Qırmızı Professorlar İnstitutunun fəlsəfə şöbəsinə daxil olur. Onu AK (b) P MK-nın qərarı ilə məsul partiya işinə təyin edirlər. 1933-cü ildə isə o, Azərbaycan XMK-nın müavini təyin edilir. MİK-nın Rəyasət Heyyətinin 7 mart 1934-cü il tarixli qərarı ilə Ayna Sultanova XMK-nın müavini vəzifəsində azad edilir, Xalq Ədliyyə Komissarının müavini və Ali Məhkəmənin sədri vəzifəsindən təyin edilir [13, 1, 5, 9, 10, 11, 29]. Eyni zamanda o, Cənubi Qafqaz Həmkarlar İdtifaqı Şurası mədəniyyət bölməsinin müdiri və ÜİK (b) P Cənubi Qafqaz Ölkə Komitəsində qadınlar bölməsinin müdiri, kütləvi təşviqat şöbəsi müdirinin müavini vəzifəsində çalışmışdır. O, müsəlman Şərqində ali məktəb müəllimliyindən Azərbaycan SSR Ədliyyə Naziri vəzifəsinə yüksələn ilk qadın idi [20, 14; 21, 12]. Qeysər Kaşıyeva Əli Bayramov adına klubda mədəni maarif şöbəsinə başçılıq etmiş, bu klubdakı yeganə rəsam-qadın kimi klubun tərtibatına başçılıq edənlərdən biri olmuş, plakatlar, dostluq şarjları çəkmiş, divar qəzeti buraxmışdır. Onların hər biri şəxsiyyət kimi cəmiyyətin siyasi və ideoloji həyatına daxil olmuş və onlarda bu prosesdə intellektual xüsusiyyətlər və iradi xassələrlə təzahür edən müəyyən sosial-psixoloji keyfiyyətlər formalaşmışdır. Onlar ictimai proseslərə daxil olmaqla yaşayışlarını dəyişməyə başlamışdılar: Gülarə Köylü qızı Qədirbəyova 1923-cü ildə Qəza qadınlar şöbəsinin müdürü, 1927-ci ildə Az.MİK Qadınlar Şöbəsinin müdürü vəzifəsinə irəli çəkilmişdir. 1932-37-ci illərdə Əli Bayramov adına Mərkəzi Qadınlar Klubunun direktoru, Azərbaycan Xalq Maarif Komisarlığı kütləvi mədəni-maarif İşləri şöbəsinin rəhbəri vəzifəsində çalışlmış, respublikanın tərəqqisində əvəzsiz xidmətlər göstərmişdir [9]. 1931-32-ci illərdə Azərbaycan KP(b) MK-da qadınlar arasında iş bölməsinə rəhbərlik etmişdir. 1931-ci ildə «Şərq» qadın jurnalına redaktor təyin olunmuşdur. Yüksək intellektual səviyyəsi, beynəlxalq hadisələrə yaxından bələd olması, siyasi cəhətdən savadlılığı, ədəbi-bədii fikrin qadınların sinfi şüurunun oyanmasına müsbət təsirini dərk etməsi onun peşəkar jurnalist kimi fəaliyyətini davam etdirməsinə imkan vermişdir. O, psixoloji baxımdan bir şəxsiyyət kimi daima

ictimai fəallıq göstərmişdir. Fəaliyyət dairəsinin mütəmadi olaraq genişləndirmiş, mahir natiqlik qabiliyyətindən istifadə etməklə qadınların siyasi və ideoloji cəhətdən savadlanması üçün geniş təbliğatı işlər aparmışdır. Ən çətin, mürəkkəb anlarında belə tutduğu həyat mövqeyinə görə hərəkət etmiş, əqidəsindən dönməmişdir. Ziya Bünyadovun arxiv sənədlərinə istinadən Gülarə Göylü qızı haqqında verdiyi məlumatdan məlum olur ki, o, 1938-ci ilin avqustun 8-də Təhlükəsizlik İdarəsinin verdiyi arayışa əsasən həbs edilmişdir. Gülarə Köylü qızını əksinqilabçı millətçi təşkilatın üzvü olmaqda, «milli kadrlardan» istifadə etməməsinə görə hökuməti ittiham edərək dövlət əleyhinə çıxışlar etməkdə və bu baxımdan Ruhulla Axunıdovu müdafiə etməkdə; ərinin günahsız güllələnməsinə qarşı etiraz etməkdə bir qrup müsavatçılarla… əlaqəsi olmaqda təqsirləndirirdilər [17]. Şahidlərin ifadələri oxunmuş və o, bu ifadələri qətiyyətlə rədd etmişdir. İstintaqın gedişində onun kifayət qədər inkişaf etmiş adam olduğu, «Bir sarayın tarixi» (Əli Bayramov adına mədəniyyət sarayının 15 illiyinə hazırlanmış) kitabını şəxsən redaktə etməsi və kitabın müsavatçı ruhunda yazılması göstərilmiş və işə tikilmişdir. 1939-cu il yanvarın 20-də ona yazılmış ittihamnamədə qeyd edilirdi ki, «Qədirbəyova Gülarə xanım İbrahim Xəlil qızı müqəssirdir ona görə ki, o, əksinqilabı millətçi təşiklatının fəal üzvü olaraq, həmin təşkilatın üzvləri ilə əlaqə saxlayırdı. Qədirbəyova özünü müqəssir bilməyir»… [17]. Gülarə Köylü qızı ictimai inkişaf prosesində şəxsiyyətə çevrilmişdir, şəxsiyyət kimi, cəmiyyətin üzvi kimi öz mövqeyini dərk edir və başa düşürdü ki, onun həbsxana divarları arasındakı fəaliyyəti bilavasitə iradəsinin təzahüri kimi təsdiqlənir, tətbiq edilən işgəncələr (əksər repressiyaya uğrayan qadınlar kimi) onun tutduğu mövqedən, əqidəsindən döndərməməlidir. Malik olduğu iradi keyfiyyətləri – müstəqilliyini, cəsarətini, mərdliyini, inadkarlığını son ana qədər itirməyən Gülarə Köylü qızı Azərbaycan xalqının qan yaddaşında hörmət və nüfuzunu şəxsiyyət kimi əbədi saxladı.

Şəxsiyyətin hərtərəfli inkişafı üçün əsas amillərdən biri onun yaradıcılıq fəallığıdır. O, «şəxsiyyətin inteqral xüsusiyyəti olub onun intellektual və motivasiya sahələrini özündə cəmləşdirir» [22, 20]. Bu qadınların hər biri yaşadıqları zamanın «milli məfkurəyə» qarşı qoyduğu qadağaya adaptasiya etməmiş, öz fəallıqlarını qoruyub saxlaya bilmişdilər. Yaradıcılıq səylərinin köməyi ilə ictimai təcrübənin mənimsənilməsi nəticəsində onlarda özünə məxsus fərdi xüsusiyyətlər təşəkkül tapmışdır. Bu isə onlara rejimin sərt ideoloji qaydalarına məhəl qoymadan özlərinə həyat yolunun və şəxsiyyətlərinin yaradıcısı kimi baxmağa imkan verdi. Kamil şəxsiyyət kimi müəyyən həyat yoluna malik olmaq, yaranmış sosial-psixoloji şəraitdə bir şəxsiyyət kimi vətənin taleyinə biganə qala bilməmək isə totalitar rejimin tətbiq etdiyi dəyərlər və məqsədlərlə üst-üstə düşmədiyindən bu rejimdə onların məhvi labüd idi və onların sağlığında öz intibah dövrünü yaşayan Əli Bayramov adına qadınlar klubunun sonrakı taleyi də onların özü kimi amansız, müəmmalı sonluğa məhkum edildi…

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası MDA: f. 57, siy.1, iş 103.
2. Azərbaycan Respublikası MDA: f.57, siy.1, iş 236.
3. Azərbaycan Respublikası MDA: f.57, siy.1, iş 257.
4. Azərbaycan Respublikası MDA: f. 57, siy.1, iş 287.
5. Azərbaycan Respublikası MDA: f.57, siy.1, iş 322.
6. Azərbaycan Respublikası MDA: f.57, siy.1, iş 526.
7. Azərbaycan Respublikası MDA: f.57, siy.1, iş 644.
8. Azərbaycan Respublikası MDA: f.57, siy.1, iş 773.
9. Azərbaycan Respublikası MDA: f.57, siy.1, iş 1016.

10. Azərbaycan Respublikası MDA: f.379, siy.1, iş 307.
11. Azərbaycan Respublikası MDA: f.379, siy.1, iş 2951.
12. Azərbaycan Respublikası MDA: f.379, siy.1, iş 5203.
13. Azərbaycan Respublikası MDA: f.379, siy.1, iş 5332.
14. Azərbaycan Respublikası MDA: f. 379, siy.1, iş 3073.
15. Azərbaycan Respublikası MDA: f.379, siy.1, iş 3097.
16. Azərbaycan Respublikası MDA: f.379, siy.1, iş 5203.
17. Bünyadov Z.M. Qadınlarımız, qurbanlarımız. «Ədəbiyyat və incəənət» qəz.,…Bakı: 1990, 28 sentyabr.
18. Əliyev B.H. Şəxsiyyət probleminə yeni baxış / Elmi-praktik konfransın materialları, Bakı: 1988, s. 3-7.
19. Əliyev B.H., Əliyeva K., Cabbarov R., Mustafayev M. Şəxsiyyətin özünü gerçəkləş-dirməsində özünüdərketmənin rolu // Psixologiya, elmi-praktik jurnal, 2007, №1, s. 3-13.
20. Gəncəli S.S. Böyük bir nəslin faciəsi // Azərbaycan qadını, 1989, № 9, s.14-16.
21. Sultanova H. İlk redaktor // Azərbaycan qadını, 1974, №3, s.12.
22. Алиева К.Р. Творчество как фактор развития личности: Автореф:. Дис. канд. псих. наук. Баку: 2002, 25с.

## ЖЕНСКИЕ КЛУБЫ (1920-1930-е годы)

**Г.И.ИБРАГИМОВА**

### РЕЗЮМЕ

Изучение женской политики в Азербайджане является одной их важных проблем национальной политологии.

В статье освещается деятельность женских клубов как одного из учреждений для удержания советским режимом под влиянием советской коммунистической идеологии общественности, в том числе и женщин в 1920 – накануне 40-х годов.

В то же время отражены реалии, проводившиеся в отношении женщин клубом имени Али Байрамова, имевшим важное значение как очага общественно-политического, так и культурного воспитания; трагическая учесть женщин, сыгравших исключительную роль в истории этого клуба.

## WOMEN CLUBS (1920-1930s)

**G.I.IBRAHIMOVA**

### SUMMARY

Studying of women policy in Azerbaijan is one of the important issues in national policy studying. From this view point the soviet regime’s policy for keeping under the influence of the soviet communist ideology all the mass of population, including the women as one of the various and multi-problematic institutions the women clubs’ activity is elucidated in the article. As well as Ali-Bayramov club’s, that had been of exceptional importance as a mass-political and cultural house- measures realized in connection with women , tragic ends of life of the women personalities who had had exceptional role in the history of the club is reflected in the article.